**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 031/351

**Bakı şəhəri** "06" may **2024-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu quş xəstəliyindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2021-2024-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Niderland Krallığının Qroninqen (Groningen), Frislandiya (Friesland), Overeysel (Overijssel), Limburq (Limburg), Şimali-Brabant (Noord-Brabant), Zelandiya (Zeeland), Drente (Drenthe), Cənubi Hollandiya (Zuid-Holland) əyalətlərində, Almaniya Federativ Respublikasının Türingiya (Thüringen) vilayətində, Avstriya Respublikasının Yuxarı Avstriya (Oberösterreich), Ştiriya (Steiermark) inzibati ərazi vahidlərində, Amerika Birləşmiş Ştatlarının (ABŞ) isə Oreqon (Oregon), Şimali Dakota (North Dakota) və Şimali Karolina (North Carolina) ştatlarında qeydə alınmış yüksək patogen quş qripi (YPQQ) xəstəliyi aradan qaldırılıb.

Belə ki, qeyd olunan ölkələrin həmin inzibati ərazi vahidlərində aradan qaldırılmış YPQQ xəstəliyinə görə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, YPQQ xəstəliyinin baş verməsinə görə sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərinə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1.** 2021-ci il 15 noyabr tarixli 067/162 nömrəli qərarla Niderland Krallığının Qroninqen əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 2021-ci il 23 noyabr tarixli 070/165 nömrəli qərarla Niderland Krallığının Frislandiya əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 2021-ci il 24 dekabr tarixli 077/172 nömrəli qərarla Niderland Krallığının Overeysel əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 2021-ci il 29 dekabr tarixli 079/174 nömrəli qərarla Niderland Krallığının Limburq əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 2022-ci il 28 yanvar tarixli 007/182 nömrəli qərarla Niderland Krallığının Şimali-Brabant əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 2022-ci il 19 avqust tarixli 046/221 nömrəli qərarla Niderland Krallığının Zelandiya əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.7.** 2022-ci il 17 oktyabr tarixli 058/233 nömrəli qərarla Niderland Krallığının Drente əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.8.** 2022-ci il 21 oktyabr tarixli 060/235 nömrəli qərarla Niderland Krallığının Cənubi Hollandiya əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.9.** 2022-ci il 21 dekabr tarixli 073/248 nömrəli qərarla Almaniya Federativ Respublikasının Türingiya vilayətinə tətbiq edilmiş məhdudiyyət;

**1.10.** 2023-cü il 23 yanvar tarixli 002/253 nömrəli qərarla Avstriya Respublikasının Yuxarı Avstriya inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.11.** 2023-cü il 30 yanvar tarixli 004/255 nömrəli qərarla Avstriya Respublikasının Ştiriya inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.12.** 2023-cü il 30 oktyabr tarixli 049/300 nömrəli qərarla ABŞ-ın Oreqon ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.13.** 2023-cü il 27 noyabr tarixli 056/307 nömrəli qərarla ABŞ-ın Şimali Dakota ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.14.** 2024-cü il 19 fevral tarixli 015/335 nömrəli qərarla ABŞ-ın Şimali Karolina ştatına tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer